PARADIGMA, No.3, 2025, səh.75-80
https://doi.org/10.30546/30015.2025.3.043

# HÜQUQİ ASPEKTDƏN ERKƏN ANALIQ

**M.N. Əliyev, T.A. Təhməzli**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Tarana.Tahmazli@student.au.edu.az

**Xülasə**. Bu tədqiqat erkən analığın hüquqi aspektlərini araşdırır. Erkən nikahın insan hüquqlarının pozulması kimi qəbul edildiyi beynəlxalq hüquqi sənədlər və Azərbaycan qanunvericiliyi əsasında təhlil aparılır. Eyni zamanda analığın sosial konstruksiyası feminist nəzəriyyələr əsasında qiymətləndirilir və hüquqi diskursda "yaxşı" və "pis" ana anlayışları araşdırılır.

**Açar sözlər**: Erkən analıq, hüquqi tənzimləmə, gender bərabərliyi, sosial konstruksiya.

## Giriş

Uzun illər ərzində analıqla bağlı müzakirələr əsasən gender bərabərliyi və ədalət anlayışları ətrafında cəmlənmişdir. Bu çərçivədə müzakirəyə açıq əsas məsələ belə qoyulurdu: analıq və atalıq hüquqları bərabər şəkildə tətbiq olunmalıdırmı, yoxsa analığın özünəməxsus məsuliyyətləri nəzərə alınaraq analara əlavə hüquqlar verilməlidirmi? Bu sual ətrafında fərqli mövqelər formalaşmışdır. Bəzi mühafizəkar yanaşmalar və bəzi feminist mövqelər analığın "təbiiliyi" ideyasını əsas götürərək qadının bioloji və sosial baxımdan xüsusi statusa malik olduğunu vurğulamış, bunun hüquqi sistemdə də əks olunmasının vacibliyini müdafiə etmişdir. Əks mövqedə isə hüquqi bərabərliyi müdafiə edən liberal yanaşmalar dayanaraq, analıq və atalıq arasında hər hansı hüquqi ayrı-seçkiliyin gender ədalətini pozduğunu iddia etmişdir. Onlar hesab edirdilər ki, qadınların konsepsiya, hamiləlik, doğuş və laktasiya kimi bioloji imkanlara malik olmalarına baxmayaraq, analıq anlayışı təbii bir hal kimi deyil, sosial konstrukt kimi dəyərləndirilməlidir [1].

Bütün bu fikir ayrılıqlarına baxmayaraq, diqqət çəkici məqam odur ki, analıq anlayışının özü, yəni "ana kimdir?", "uşağın hüquqi anası kim sayılır?" kimi suallar çox nadir hallarda əsaslı şəkildə sorğulanmışdır. Xüsusilə də erkən yaşda hamilə qalan və ana olan yeniyetmələrin hüquqi statusu bu çərçivədə ya nəzərdən qaçmış, ya da sadələşdirilmiş formada təqdim olunmuşdur. Halbuki bu günün reallığı göstərir ki, erkən analığın hüquqi və sosial nəticələri təkcə fərdi deyil, həm də institusional səviyyədə ciddi nəticələr doğurur. Yeniyetmə yaşda ana olmuş bir şəxsin hüquqi məsuliyyət daşıyacaq qədər yetkin sayılıb-sayılmaması, onun təhsil hüququnun necə qorunacağı, uşağın qəyyumluğunun kimə veriləcəyi və digər bu kimi məsələlər indiki dövr üçün aktual suallardır.

Eyni zamanda, müasir cəmiyyətdə surroqat analıq, donor yumurtası ilə hamiləlik və eyni cinsli ailələrdə valideynlik kimi hallar analıq anlayışını yenidən düşünməyə vadar edir. Bu kimi yeni hallar “ana” anlayışını yalnız bioloji funksiyaya bağlamağı mümkün etmir. Beləliklə, hüquqi sistem analıq anlayışını yenidən formalaşdırmaq məcburiyyətində qalır.

Bu çərçivədə tarixə nəzər salmaq, məsələyə yalnız bu günün baxış bucağından deyil, zamanın verdiyi təcrübədən çıxış edərək yanaşmaq mühüm əhəmiyyət daşıyır. Tarixin böyük bir hissəsində qanun analıq statusunun müəyyən olunma meyarları ilə bağlı susqun qalmışdır (eyni zamanda kifayət qədər aydın olmuşdur). Bu qədər uzunmüddətli susqunluq analığın sosial norma deyil, hüquqdan əvvəl mövcud olan və insanın fərqləndirilmiş qərarvermə fəaliyyətinə tabe olmayan “təbii verilmişlik” kimi dəyərləndirilməsi qənaətinə gətirib çıxara bilər. Lakin daha dərindən araşdırıldıqda mater semper certa prinsipinə (latınca hüquqi ifadə olub “ana həmişə məlumdur” mənasını verir; yəni uşağın anasının kimliyi doğuş faktına əsasən heç vaxt şübhə doğurmur) müəyyən istisnaların mövcud olduğu müşahidə edilir ki, bu da təbii hüquq tezisinin doğru olmadığını açıq şəkildə nümayiş etdirir.

Bu istisnalardan biri kimi arxaik Roma qohumluq sistemi göstərilə bilər. Həmin dövrdə qohumluq sistemi patrilineal xarakter daşıyırdı və doğan ana ilə övlad arasında heç bir hüquqi əlaqə mövcud deyildi. Sonralar müəyyən hüquqi bağların tanınmasına baxmayaraq, Roma hüququ əsrlər boyu əsasən patrilineal olaraq qalmaqda davam etmişdir [2]. Belə sistemlərdə ana ilə uşaq arasında bəzi hüquq və öhdəliklərin mövcudluğu (məsələn, ananın uşağı əmizdirməsi və ona şəxsi qayğı göstərməsi) tamamilə istisna deyildi, lakin bu hüquq və öhdəliklər ana ilə uşaq arasında hüquqi münasibətlərdən deyil, ananın uşaq atasının həyat yoldaşı olması faktından irəli gəlirdi.

Nəticədə analıqla bağlı hüquqi normaların keçmişdə necə tənzimləndiyi, hansı prinsiplərə əsaslandığı və bu prinsiplərin necə dəyişdiyi öyrənilmədən, bu gün ortaya çıxan hüquqi boşluqları anlamaq çətindir. Bu səbəbdən mövcud araşdırma aşağıdakı iki əsas hüquqi istiqamətə fokuslanır:

- Ana statusunun hüquqi baxımdan necə müəyyən edildiyi ;
- Uşaq və ana arasında hüquqi münasibətlərin – o cümlədən qəyyumluq, maddi təminat və vərəsəlik hüquqlarının – necə tənzimləndiyi.

Erkən analıqla bağlı hüquqi məsələlərin yanında sosial amillər də bu problemi daha da mürəkkəbləşdirir. Yeniyetmə analar tez-tez təhsil imkanlarının məhdudlaşması, sosial təcrid və maddi çətinliklərlə üzləşirlər. Bu, onların yalnız fərdi inkişafına deyil, həm də uşağın sağlamlığı və rifahına mənfi təsir göstərir. Cəmiyyətin erkən analığa münasibəti, qadınların sosial statusu və mövcud dəstək mexanizmlərinin gücü bu prosesdə həlledici rol oynayır.

**Analığın hüquqi və sosial çərçivədə dəyərləndirilməsi: gender bərabərliyi və insan hüquqları kontekstində**

Qadınların sağlamlığı və təhlükəsizliyi bu gün dünyada ən həssas və eyni zamanda əhəmiyyətli məsələlərdən biri olaraq qalır. Ana hüquqları qadınların insani ləyaqətinin fundamental hissəsi kimi tanınır və ədalət prinsiplərinə əsaslanan ailə və cəmiyyət quruculuğunda mühüm rol oynayır. Lakin bir çox cəmiyyətlərdə ana həyatının dəyərsiz olduğu və qadının önəmsiz sayıldığı səssiz bir fərziyyə hökm sürür ki, bu da analar üçün ciddi sosial və hüquqi nəticələr doğurur. Bu məsələni dərindən təhlil etmək üçün öncə "ana" və "analıq" anlayışlarının mənasına aydınlıq gətirmək zəruridir. Müxtəlif dövrlərdə ana anlayışına dair fərqli təriflər təqdim olunsa da, əsas götürülən tərif belədir : "hamiləlik dövrünü keçirərək uşaq dünyaya gətirən şəxs". Bu baxış bucağından analıq — bioloji valideynlik, hüquqi valideynlik və uşağa qulluq məsuliyyətinin vəhdəti kimi başa düşülür və bu status yalnız doğuşu həyata keçirən şəxsə verilir. Həmin tərif bəzi hallarda məhdudlaşdırıcı görünə bilər, çünki hüquqi və sosial baxımdan valideynlik funksiyasını yerinə yetirən digər qadınları bu anlayışdan kənarda qoyur. Bununla belə, bu yanaşma analarla bağlı insan hüquqları sahəsində üç mühüm və aktual problemi önə çıxarır. İlk olaraq analığın hamiləlik və doğuşa əsaslanaraq müəyyənləşdirilməsi qadınlara yönəlmiş spesifik insan hüquqlarının tətbiqini zəruri edir. Hazırkı hüquqi yanaşmalar əsasən ana və ata arasında hüquqi bərabərliyə əsaslanır və bu model valideynlikdə gender bərabərliyini təmin etmək üçün optimal yol hesab olunur. Lakin feminist nəzəriyyəçilər vurğulayırlar ki, bu gender neytrallığına əsaslanan yanaşma əslində ana ilə atanın valideynlik təcrübələri arasında mövcud olan əsaslı fiziki və psixoloji fərqləri nəzərə almır. Məsələn, yalnız qadınlar uşağı bəsləmək (əmizdirmək) və hamiləlik dövrünü yaşamaq kimi bioloji prosesləri keçirirlər. Bu isə onların yalnız fizioloji deyil, eyni zamanda emosional və sosial məsuliyyət daşıyan fərqli bir valideynlik forması ilə qarşı-qarşıya qaldıqlarını göstərir. Bu reallıqlar qadınların hüquqlarının qorunması baxımından nəzərə alınmadığı zaman qadınlar, xüsusilə də erkən ana olmuş qadınlar əmək bazarında, təhsil imkanlarında, sosial rifah sistemində və ümumilikdə hüquqi münasibətlərdə ciddi bərabərsizliklərlə üzləşirlər. Cəmiyyətlərin analığı fədakarlıq və özünü fəda etmə aktı kimi təqdim etməsi, qadının şəxsi hüquq subyekti olaraq tanınmasına maneə yaradır və bu da hüquqi bərabərlik prinsipinin pozulmasına gətirib çıxarır.

**Erkən Nikah və Analığın Hüquqi Tənzimlənməsi : Milli və Beynəlxalq Kontekst**

Erkən nikah – yəni nikah tərəflərindən birinin 18 yaşına çatmamış olduğu hallar – beynəlxalq və milli hüquq normalarında ciddi şəkildə tənzimlənmiş və insan hüquqlarının

pozulması kimi qiymətləndirilmişdir. BMT tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyasına əsasən 18 yaşdan aşağı şəxslər uşaq hesab olunur və onların nikaha daxil olması bu sənədin birinci maddəsində açıq şəkildə tənqid olunur [3]. Beynəlxalq normalar bu halları insan hüquqlarının pozulması kimi qiymətləndirir. Beynəlxalq hüquq sənədlərində, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsində vurğulanır ki, nikah yalnız tərəflərin hər ikisinin tam və azad iradəsinə əsasən baş tuta bilər. Əgər tərəflərdən biri yetkinlik yaşına çatmamışdırsa və gələcək həyat yoldaşını seçmək və onunla birgə həyat qurmaq barədə yetkin qərar vermək iqtidarında deyilsə, bu halda "azad və tam razılıq"dan söhbət gedə bilməz. Buna görə də belə nikahlar hüquqi və mənəvi baxımdan qəbulolunmaz sayılır.

Milli qanunvericilikdə, o cümlədən nikah və ailə münasibətlərini tənzimləyən aktlarda da yalnız dövlət qeydiyyatına alınmış rəsmi nikahların hüquqi nəticələr doğurduğu qeyd olunur. Nikaha daxil olmaq üçün əsas şərtlərdən biri nikah tərəflərinin qanunvericiliklə müəyyən edilmiş yaş həddinə çatmış olması və bu nikahın könüllü razılıq əsasında bağlanmasıdır [4]. Bu prinsiplər həmçinin yaxın qohumlar arasında, həmçinin himayəçi-müvəkkil münasibətləri olan şəxslər arasında nikahların qarşısını almaq üçün də tətbiq edilir. Valideynlik hüquqlarının həyata keçirilməsi zamanı isə uşağın hüquq və mənafeləri ön planda tutulur. Valideynlər uşaqların fiziki və mənəvi inkişafını təmin etmək öhdəliyinə malikdirlər və bu hüquqlardan istifadə edərkən onların sağlamlığına, psixoloji durumuna və rifahına zərər vurmaq yolverilməzdir. Qanunvericilikdə göstərilir ki, uşağın hüquqlarına zidd hərəkət edən valideynlər müvafiq məsuliyyətə cəlb oluna bilər. Uşaqla bağlı qərarlar – məsələn, yaşayış yeri, təhsil və tərbiyə məsələləri – valideynlərin qarşılıqlı razılığı və uşağın rəyinə əsasən həll edilməlidir. Əgər valideynlər arasında razılıq mövcud deyilsə, bu məsələlər müvafiq məhkəmə və ya icra hakimiyyəti orqanı tərəfindən uşağın maraqları əsas götürülərək həll edilir. Polis fəaliyyətinə dair normativ aktlarda isə yeniyetmələrin hüquqlarının müdafiəsinə xüsusi yer ayrılmışdır. Hüquq-mühafizə orqanları yeniyetmələrin hüquqlarının pozulmasının qarşısının alınmasında birbaşa məsuliyyət daşıyırlar.

Bundan əlavə, erkən nikah halları Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə (Maddə 176-1) də hüquqi qiymət alır [5]. Qadını nikaha daxil olmağa məcbur etmək, xüsusən də nikah yaşına çatmamış şəxs barəsində bu hərəkəti törətmək ciddi cəza tədbirləri ilə nəticələnə bilər. Bu cür hallarda qanunla müəyyən edilmiş cərimələr və ya azadlıqdan məhrumetmə tədbirləri tətbiq olunur.

**Nəticə**

Erkən analıq mövzusu çox mürəkkəb və cəmiyyətdə həssas yanaşma tələb edən məsələdir. Mənim fikrimcə, bu məsələ təkcə qanunvericilik baxımından deyil, həm də sosial və

psixoloji aspektləri ilə birlikdə dəyərləndirilməlidir. Çünki yeniyetmə yaşda ana olmaq sadəcə hüquqi status məsələsi deyil - bunun altında dayanan çoxsaylı çətinliklər və problemlər var ki, onları sadəcə kağız üzərində həll etmək mümkün deyil. Bir çox gənc qızların erkən yaşda analıqla üzləşməsi onların təhsilindən geri qalmasına, sosial əlaqələrinin zəifləməsinə və gələcəkdə peşəkar imkanlarının məhdudlaşmasına səbəb olur. Bu da uzun müddətli perspektivdə cəmiyyət üçün itki deməkdir. Ona görə də erkən analığın qarşısının alınması üçün yalnız cəzalandırıcı mexanizmlərlə kifayətlənmək olmaz, elə proqramlar, maarifləndirmə kampaniyaları və sosial dəstək sistemləri yaradılmalıdır ki, gənclər öz hüquq və imkanlarını tam dərk etsinlər. Hesab edirəm ki, erkən analıq məsələsində ən önəmli məqamlardan biri qadınların hüquqlarının qorunmasıdır. Erkən yaşda ana olmuş qadınlar, xüsusilə hüquqi boşluqlar, sosial stereotiplər və maddi çətinliklər fonunda çox ciddi haqsızlıqlara məruz qalırlar. Bu baxımdan onların hüquqlarını qoruyan qanunların təkcə mövcud olması deyil, həm də effektiv tətbiqi və sosial reallıqlara uyğunlaşdırılması vacibdir.

Bundan başqa, cəmiyyətin bu məsələ ilə bağlı mövqeyi də çox önəmlidir. Əgər qadınları yalnız "ana" statusuna görə qiymətləndirib, onların fərdi hüquq və azadlıqlarını nəzərə almırıqsa, bu zaman erkən analıqla mübarizə səmərəsiz olur. İctimaiyyətin məlumatlandırılması, gender stereotiplərinin aradan qaldırılması və qadınların fərdi inkişafına dəstək mexanizmlərinin yaradılması zəruridir.

Nəticədə erkən analıq probleminin həlli yalnız hüquqi aktların təkmilləşdirilməsi ilə bitmir. Bu, həm də sosial, təhsil və iqtisadi sahələrdə kompleks və ardıcıl tədbirlərin görülməsi deməkdir. Gənc anaların psixoloji və sosial dəstəklə təmin olunması, onların hüquqlarının və imkanlarının genişləndirilməsi üçün hərtərəfli yanaşma tətbiq edilməlidir. Bu yolla cəmiyyət erkən analığın mənfi nəticələrini azalda və gənc nəsilin sağlam, təhsilli və güclü olmasına zəmin yarada bilər.

## Ədəbiyyat

1. Smart, C. 1996. Deconstructing motherhood, in Good Enough Mothering, edited by E. Silva. London: Routledge, 37–57.
2. Corbier, M. 1991. "Constructing Kinship in Rome: Marriage and Divorce, Filiation and Adoption", in Kertzer, D. and Saller, D. (eds.), The Family in Italy from Antiquity to the Present. New Haven, Yale University Press, 127-144.
3. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/convention-rights-child
4. https://e-qanun.az/framework/46946
5. https://e-qanun.az/framework/46947#_Toc89058514

# EARLY MOTHERHOOD FROM A LEGAL PERSPECTIVE

**M.N. Aliyev, T.A. Tarana**
Azerbaijan University, Ceyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract**. This research investigates the legal aspects of early motherhood. Early marriage is analyzed as a human rights violation under international and Azerbaijani law. Motherhood is also examined as a social construct through feminist theories, exploring the concepts of “good” and “bad” mother in legal discourse.

**Keywords**: Early motherhood, legal regulation, gender equality, social construction.